Tarix və onun problemləri, №4 2009

KƏMALƏ HAQVERDIYEVA
*Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu*

# AZƏRBAYCANDA GENDER BƏRABƏRLIYININ TƏMIN EDILMƏSI VƏ QADIN HƏRƏKATI

Azərbaycan Dövlətinin qadınlarla bağlı həyata keçirdiyi siyasət.... qadınların bərabər hüquqlarını və bərabər imkanlarını təmin etməyə yönəlmişdir.
Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEV

Bəşəriyyətin inkişaf tarixi mərhələləri boyunca qadınlar kişilərlə bərabər eyni hüquqlar qazanmaq uğrunda mübarizə aparmışlar. Sözügedən mübarizənin özünəməxsus inkişaf yolu və böyük bir tarixi vardır. Bu cinsi ayrı-seçkiliyə qarşı mübarizə adlanmaqla yerli çərçivədən qlobal səviyyəyədək həqiqətən də böyük bir inkişaf yolu keçmişdir. Bir mühüm məqamı vurğulamaq lazımdır ki, bəşəriyyətin inkişaf tarixinin bütün mərhələlərində qadınların kişilərlə bərabər rol oynamalarına baxmayaraq, qeyd edək ki, onların hüquq bərabərliyi əsrlər boyu bir çox subyektiv və ya obyektiv səbəblərdən öz həllini tapa bilməmişdir.

Nəhayət ki, XIX əsrin sonlarından başlayaraq uzun bir mübarizə nəticəsində bu problem zamanın tələbi ilə özünün siyasi, həm də hüquqi cəhətdən həllini tapmağa başladı.

Ardıcıl olaraq bütün beynəlxalq təşkilatlarda qlobal problem kimi qadınların kişilərlə bərabər hüquqlara malik olması ilə bağlı həmin sahədə mövcud olan problemlərin müsbət həllinə yönəlmiş çoxtərəfli və mühüm əhəmiyyətə malik beynəlxalq sənədlər qəbul edilmişdir. Sözügedən sənədlərin reallaşdırılması mexanizminin təmin edilməsi və burada qeyd olunmuş öhdəliklərin həyata keçirilməsi iştirakçı dövlətlərin qarşısında duran əsas məsələlərdəndir.

Bildiyimiz kimi, dünya birliyi elə məhz buna görə də hüquqi dövlət quruculuğunun, demokratiyanın, vətəndaş cəmiyyətinin inkişaf səviyyəsinin mühüm meyarı kimi qadın hüquqlarının təmin olunması, həmçinin qadınların cəmiyyətdə, siyasi hakimiyyətdə təmsilçiliyi qəbul edilir. Yuxarıda qeyd olunanların nəticəsi kimi, artıq qadınların müasir cəmiyyətdə ictimai-siyasi həyatın bütün sahələrinə ciddi təsir etməsi özünü göstərməkdədir.

Bir çox tədqiqatçılar XXI əsrdə dünyanın siyasi düzənində nəzərə çarpacaq dəyişikliklərin baş verəcəyini proqnozlaşdırmaqla yanaşı, dünyanın siyasi hakimiyyət xəritəsində də ciddi dəyişikliklərin olacağını qeyd edirdilər. Bu araşdırma və tədqiqatlarda XXI əsr mədəniyyətlərarası dialoq, tolerantlıq əsri kimi xarakterizə olunmaqla yanaşı, həm də siyasi hakimiyyətdə qadın təmsilçiliyinin güclənməsi əsri kimi proqnozlaşdırılırdı. Qərar qəbulunda, idarəçilikdə qadınların təmsilçiliyi XX əsrin 70-ci illərindən başlayaraq aparılan araşdırmalarda zərurət kimi göstərilirdi.[7, p. 895]

Azad cəmiyyət qurmağa, insanlar arasında daha ahəngdar münasibətlər formalaşdırmağa can atan bəşəriyyətin tərəqqisini müəyyənləşdirən başlıca prinsiplər inkişaf, bərabərlik və sülhdür. Üçüncü minillikdə beynəlxalq ictimaiyyət bəşəriyyətin ən ümdə inkişaf məqsədlərini müəyyənləşdirərkən yekdilliklə demokratiyanın inkişafı, tolerantlığın və sosial ədalətin əldə olunmasının əhəmiyyətli dərəcədə gender bərabərliyindən asılı olması qənaətinə gəldi. İnsan amilinin mühüm və aparıcı yer tutduğu, inkişafın, bərabərliyin böyük əhəmiyyət kəsb etdiyi müasir dövrdə qadınların irəli çəkilməsi, siyasi

hakimiyyətdə təmsil olunması kimi məsələlər demək olar ki, müəyyən maneələrlə qarşılaşmaqdadır. Hal-hazırda bir tərəfdən beynəlxalq münasibətlər sistemi müstəvisində gender bərabərliyi hüquqi, demokratik dövlət quruculuğunun norma və dəyərinə çevrilmiş, başqa bir tərəfdən isə dünyada gedən qlobal geosiyasi dəyişikliklər, genişlənən etnik konfliktlər, müəyyən ölkələrdə yaşayış səviyyəsinin kəskin aşağı olması, insan alveri, getdikcə artan narkomaniya və digər bəşəriyyətin inkişafı üçün təhlükəli olan problemlər sözügedən məsələlərin aktuallığını daha da artırmışdır. Məhz ona görə də müasir dövrdə nüfuz və hakimiyyəti müəyyən edən başlıca göstəricilərdən biri, həm də ən mühüm əhəmiyyətə malik olanı qadınların irəli çəkilməsi, onların qərar qəbulunda iştirakının, təmsilçiliyinin təmin olunmasıdır. Yuxarıda qeyd olunan fikrin həyata keçirilməsinin zəruriliyi artıq öz təsdiqini tapmışdır. Müxtəlif ölkələrdə qadınların irəli çəkilməsi, onların siyasi hakimiyyətdə, qərar qəbuletmə səviyyəsində təmsil olunması zəruri ehtiyac kimi qəbul olunmaqdadır. Onu da qeyd etmək lazımdır ki, qadınların sosial və siyasi həyata inteqrasiya etməsi demokratikləşmə prosesinin əsas elementlərindən biridir.

Qadın hərəkatı tarixini tədqiq edən və öyrənən bir çox tədqiqatçıların apardıqları araşdırmalarda da qadınların siyasi hakimiyyətdə təmsil olunması, qərar qəbulunda iştirakı ilə bağlı diqqəti cəlb edən nəticələr, eyni zamanda mühüm faktlar əldə edilmişdir. Aparılan araşdırmalardan əldə olunan nəticələr onu qeyd etməyə əsas verir ki, tarix boyu dünyanın ayrı-ayrı ölkələrində qədim dövrdən XIX əsrin sonuna qədər mövcud olmuş hakimiyyətlərdə qadın idarəçiliyi daha çox humanist, sosialyönlü və ədalətli olmuşdur. Yuxarıda qeyd olunan nəticələri qadın hərəkatı tarixini öyrənən bir çox tədqiqatçıların araşdırmalarında rast gəlmək olar. Bütün aparılan araşdırmaların hamısında bir mühüm məqam diqqəti özünə cəlb etməkdədir. Bu bir faktdır ki, XX əsr qadınların cəmiyyətdə statusunu dəyişdirmiş, qadınların dövlət quruculuğuna cəlb edilməsi idarəçilik və idarəetmə sahəsində qadın və kişilərin bir-birini tamamlamasına zəmin yaratmışdır. Sözügedən sahədə aparılan tədqiqatları nəzərdən keçirdikdə XX əsrin 70-ci illərindən başlayaraq siyasi hakimiyyətə gələn lider-qadınların tarixin qısa zaman kəsiyində özlərini siyasi hakimiyyətdə, idarəetmədə özlərini təsdiq etmələri diqqəti cəlb edir. Dünyada baş verən bir çox dəyişikliklər qadınların siyasi hakimiyyətdə təmsilçiliyini getdikcə daha da zəruri edirdi. Demək olar ki, qadınların hakimiyyətə gəlişi dövrün tələbi və məkanın ehtiyaclarından irəli gəlməkdədir. Hakimiyyətdə təmsil olunan, təşkilatçılıq və siyasi fəaliyyətlərində fərqli üslub və tərzlər nümayiş etdirən lider-qadınlar icra etdikləri vəzifələrindən, çalışdıqları ölkələrdən və zamandan asılı olmayaraq onları birləşdirən ümumi cəhətlər vardır. Bütünlükdə lider-qadınların fəaliyyətlərinə nəzər saldıqda onların hər zaman məsələlərə düzgün yanaşması və dəqiq nəticələr əldə edilməsi cəhətləri diqqəti cəlb edir. Qeyd olunan fikir onların kişilərdən siyasi hakimiyyətdə zəif olmadıqlarını sübut edir.

Qloballaşma proseslərinin güclənməsi, mədəniyyətlərin və ənənələrin qaynayıb-qarışması, sərhədlərin silinməsi dövründə cinslər arasındakı münasibətlər sahəsində Azərbaycanda uzun illər toplanan müsbət təcrübə qorunmalıdır. Həmin mənəvi dəyərləri qorumaqla müasir dünyanın dəyişən gerçəkliklərinə uyğunlaşdırmaq olduqca zəruridir. Azərbaycan fəxr edə bilər ki, cəmiyyətdə qadınlara daha böyük rol imkanı verməkdə yüksək göstəricilərə malikdir. Tarix göstərir ki, İslam aləmində ilk qızlar məktəbi Bakıda açılmışdır. Azərbaycan Demokratik Respublikası qadınlara səsvermə hüququ verən ilk dövlətlərdən biri olmuşdur. Qeyd edək ki, qadınlar ABŞ-da 1920-ci ildə, Fransada 1944-cü ildə, İtaliya 1945-ci ildə, İsveçrədə 1971-ci ildə səsvermə hüququ qazanmışlar. [8, s. 102] Yuxarıda qeyd olunan ənənə 1991-ci ildə Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra da davam etməkdədir. Azərbaycanın müasir dünya bir-

liyinə inteqrasiyası daha intensiv və dönməz xarakter almışdır. Azərbaycan irimiqyaslı beynəlxalq layihələrə qoşulmuş, dünya xalqları ailəsinin tamhüquqlu üzvünə çevrilmiş və bəşəriyyət qarşısında duran problemlərin həllində yaxından iştirak etməyə başlamışdır. Milli dövlətçilik mövqeyini həmişə yüksək tutan qadınlarımız daim bu proseslərin mərkəzində duraraq, Azərbaycanın qüdrətli və əmin-amanlığın hökm sürdüyü inkişaf edən bir diyara çevrilməsi yolunda aparılan əzəmətli işlərə öz dəyərli töhfələrini vermişlər. Bu gün dünyanın birliyinin bərabərhüquqlu üzvü olan, demokratik inkişaf yolu ilə beynəlxalq aləmə sürətlə inteqrasiya edən müstəqil Azərbaycanda da qadınların irəli çəkilməsinə ehtiyac hiss edilməkdədir. Bildiyimiz kimi, Azərbaycanın dövlət siyasəti iki prinsip üzərinə əsaslanır: digər ölkələrlə müqayisədə dünya üzrə inkişafa çatma və regionda inkişafı qabaqlama kontekstində. Hər iki yanaşma demokratik dəyərlərin bütün sisteminin inkişafında müstəqil və güclü dövlətçiliyin təmin olunmasına yönəldilmişdir. Onu da vurğulamaq lazımdır ki, qadın hüquqları insan hüquqlarının tərkibi və ayrılmaz hissəsidir, gender bərabərliyi isə ümumi problemdir, onun həll olunmasından hamı faydalanır. Azərbaycanın demokratik inkişafının prinsipləri arasında ən mühüm yerlərdən birini də insan və vətəndaşın hüquq və azadlıqlar prinsipi tutdu. Azərbaycan Respublikasının Konstitusiyasında (1995) vətəndaşın əsas hüquq və azadlıqlarına 47 maddəli üçüncü fəsil həsr olunur. [1, s. 15-35]

Azərbaycan Respublikasının qanunvericiliyi yaşından, ailə vəziyyətindən, məişətdə davranışından, sağlamlığından asılı olmayaraq bütün qadınların maraq və hüquqlarını qoruyur, beləliklə, əsas beynəlxalq humanitar aktların tələblərinə uyğun şəkildə bunu həyata keçirir. Qanunvericiliklə qadınların ölkənin ictimai və eləcə də siyasi həyatında iştirakını qadağan edən və ya məhdudlaşdıran müddəalar mövcud deyil. Azərbaycan Respublikasının Konstitusiyası (1995) vətəndaşlara cinsindən asılı olmayaraq seçmək, seçilmək və referendumda iştirak etmək hüququnu verir. Yalnız məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak etmək hüququ yoxdur. [1, s. 28]

Qadınların hüquqları ölkə Konstitusiyası ilə qorunur və Azərbaycan Respublikası 30 iyun 1995-ci il tarixdə BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanı (CEDAW) ratifikasiya etmişdir. [5, s. 9] Azərbaycan Respublikası Konvensiyaya qoşulmaqla sözügedən Konvensiyanın həyata keçirilməsi haqqında öhdəlikləri öz üzərinə götürərək bərabərlik və demokratiya ideyalarına tərəfdar olduğunu bir daha təsdiq etmişdir. Konvensiyanın 18-ci maddəsinə əsasən hər bir ölkə ilkin hesabatını qoşulduqdan 1 il sonra təqdim etməlidir. Müvafiq olaraq, 1996-cı ildə Azərbaycan Respublikası Konvensiyanın həyata keçirilməsi üzrə ilkin hesabatını hazırlamış və həmin hesabat 1998-ci ilin yanvar ayında BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi Komitəsinə təqdim edilmişdir. 2004-cü ildə isə Konvensiyanın Azərbaycanda icrası üzrə ikinci və üçüncü dövri hesabatı hazırlanmış və təqdim edilmişdir. Daha sonra Azərbaycan Respublikası 16 fevral 2000-ci il tarixdə sözügedən Konvensiyanın əlavə Protokolunu ratifikasiya etdi. [6, s. 2]

Əlavə Protokol qadınlara fərdi və ya qrup şəklində Konvensiyada nəzərdə tutulmuş hüquqların pozulması barədə birbaşa BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi Komitəsinə şikayət etmək hüququ verir. Əlavə Protokol tərəfdaş ölkələrin qadınların insan hüquqları və fundamental azadlıqlardan bərabər yararlanmasının təmin edilməsi və bu hüquq və azadlıqların pozulmasının qarşısının alınması üçün effektiv tədbirlərin görülməsinə dair öhdəlikləri yenidən təsdiq edir.

Azərbaycan Respublikası qanunvericiliyində qadınların parlamentə seçilməsi və digər rəhbər vəzifələrə təyin edilməsi ilə bağlı kvota nəzərdə tutulmamışdır. Buna baxmayaraq, son illər qadınların siyasi və ictimai qərar-qəbuletmə səviyyəsində iştirakı

nəzərə çarpacaq dərəcədə artmışdır. Qadınların Milli Məclisdə iştirakına gəldikdə qeyd edilməlidir ki, Parlamentdə təmsil olunan qadınların sayında 1992-ci ildə keçirilən ilk parlament seçkiləri ilə müqayisədə artım müşahidə olunur. Belə ki, 1992-ci ildə müstəqil Azərbaycan Respublikasının Milli Məclisində millət vəkillərindən yalnız 6%-i qadınlar təşkil etdiyi halda, 2005-ci ildə keçirilmiş son seçkilər zamanı qadın deputatların faiz nisbəti 11,2% təşkil etmişdir. 2005-ci ildə keçirilmiş parlament seçkilərində əvvəlki dövrlərlə müqayisədə qadın namizədlərin sayında da artım müşahidə olunmuşdur. [2, s. 74 ]

Azərbaycanda qadın hərəkatının tarixinə nəzər salsaq görərik ki, Azərbaycan qadını qayğıkeş ana, möhkəm iradəli hökmdar, fitri istedadlı şair kimi öz adını həkk etmişdir. Azərbaycan qadını öz iradəsi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında mühüm rol oynamışdır. Ümumiyyətlə, Azərbaycanda gender bərabərliyi ideyasının tarixi kökləri dərindir. Tarixə müraciət etsək, görərik ki, Azərbaycanda qadın fəallığı, öz yolunu maarifçilik və xeyriyyəçilik ideyalarının yayılmasından başlayaraq, əlbəttə, hər bir ölkədə mədəni, dini, milli ənənələrlə formalaşdırılan spesifik cizgilərə malikdir. Ölkədə formalaşan qadın hərəkatı, Azərbaycanda qadın fəallığının əsaslarını və ənənələrini, onun mənbələrini dərindən dərk edərək, maraqla öyrənilir. Tarixi palitra kifayət qədər zəngindir. Massagetlərin məşhur kraliçası, Əhəmənilər sülaləsinin əsasını qoymuş əfsanəvi Kirə qalib gəlmiş Tomris, qəhrəman qadın hökmdarlar Nüşabə, Şirvana hücum edən Krım xanını və Osmanlı qoşunlarını məğlub edən Heyran Nisə Bəyim, mərkəzləşdirilmiş Azərbaycan dövlətinin yaradıcısı Fətəli xanın həyat yoldaşı Tutu Bikə, Sara xatun, Dəspinə xatun və Mehinbanu Sultan özlərini diplomatiya sahəsində göstərmişlər. [5, s. 195] Orta əsrlər tariximizdə Uzun Həsənin anası Sara xatun, Şah İsmayıl Xətainin qızı Məhinbanu, Şah Abbasın anası Xeyransa bəyim və başqaları kimi görkəmli siyasi və dövlət xadimlərinin adları hörmətlə yad edilir. Bunu qeyd etməliyik ki, qadın hökmdarlar, döyüşçülər, diplomatlar, şairələr və rəssamlar nadir şəxsiyyətlər idi.

Azərbaycanda qadın azadlığı uğrunda mübarizənin ön sıralarında birinci olaraq, imtiyazlı sinfin qadınları çıxmışlar. Mühüm bir məqamı vurğulamaq lazımdır ki, XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin kübar qadınları yaxşı təhsil almış və tez-tez xaricdə oxumuşlar. Azərbaycan Maarifçiliyi yolunda xeyirxahlıq edənlər Azərbaycanda qadın hərəkatının başlanğıcında dururdular. Həmin dövrdə Azərbaycanda qadın hərəkatı kübar qanadı ilə deyil, həm də demokratik qanadının mövcudluğu ilə xarakterikdir. Müəyyən qisim qadınlar və onların ardıcılları, demək olar ki, hadisələrin mərkəzində olmaqla, yanaşı təhsil prosesində fəal iştirak edərək azərbaycanlı qızlar üçün məktəbdə müəllimlik edirdilər. Bunlara Q. Məlikova-Zərdabi, A. Əfəndiyeva, X. Əlibəyova, X. Vəzirova və bir çox başqaları aid idilər. [5 , s 195-197]

1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə Azərbaycan qadınlarının demokratik cəmiyyətin fəal üzvünə çevrilməsi üçün geniş imkanlar yarandı. Qadın hüquqları və azadlığı məsələsi Azərbaycanda hələ 1918-1920-ci illərdə rəsmi olaraq Azərbaycan Demokratik Respublikasının parlamenti tərəfindən gündəliyə gətirilmiş və bu sahədə ilk addımlar atılmışdır.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikasının qəbul etdiyi İstiqlal Bəyannaməsinin IV maddəsi məhz bərabərhüquqluluq prinsipini özündə təsbit edir. Sözügedən müddəa müasir dövrün gender siyasətinə tamamilə uyğundur. Azərbaycan Demokratik Respublikası dövründə həyata keçirilən əməli fəaliyyət də kişi və qadınların hüquq bərabərliyinin təmin olunmasına yönəlmişdir. [9]

1919-cu il iyunun 21-də parlament "Azərbaycan Respublikasının Müəssisələr Məclisinə seçkilər haqqında əsasnamə"ni təsdiq etmişdir. [ 3, s 61 ] Əsasnaməyə görə,

seçkilər bərabər, birbaşa və gizli səsvermə yolu ilə keçirilməli idi. Qadınlara kişilərlə bərabər seçki hüququ verilirdi. Belə ki, seçkilərdə cinsindən, dilindən, dinindən, mülkiyyətindən asılı olmayaraq 20 yaşına çatmış bütün respublika vətəndaşları iştirak edə bilərdi. Halbuki o zaman belə hüquq bərabərliyi nəinki şərq ölkələrinin böyük əksəriyyətində, hətta bir çox Avropa və Amerika dövlətlərində yox idi. Beləliklə, ADR şərqdə ilk dəfə qadınlara seçmək və seçilmək hüququ vermişdi. Ən əsası isə şərqdə ilk dəfə məhz Azərbaycanda qadınlara səsvermə hüququnun verilməsidir.

Azərbaycan qadınlarının qurultayları qadın hərəkatının inkişafında mühüm rol oynamışdır. Azərbaycan qadınlarının ilk qurultayı 1921-ci ilin fevralın 8-11-də keçirilmişdir. Birinci Qurultayda 1188 nümayəndə iştirak edirdi. Tədbirdə çoxarvadlılıq, qadın klubları və s. məsələlər barəsində geniş müzakirələr olmuşdur. Azərbaycan Qadınlarının I Qurultayında yekdilliklə "Şərqin bütün qadınlarına müraciət" qəbul edildi. [4, s. 135 ] Ceyran Bayramovanın təşəbbüsü ilə yaradılmış ilk qadın klubu bu dövrdə qadın hərəkatının inkişafında mühüm rol oynadı. [13] 1923-cü ildə "Şərq qadını" jurnalının nəşrə başlaması Azərbaycanda qadın hərəkatının tarixində əlamətdar hadisə idi. [11]

Azərbaycan qadınlarının sovet hakimiyyəti illərində elm və mədəniyyət sahəsində əldə etdikləri nailiyyətlər onların böyük istedad və əməksevərliyinə dəlalət edən tutarlı sübutdur. Sovet hakimiyyəti dövründə Azərbaycan qadınlarının 1957, 1967 və 1972-ci illərdə keçirilmiş qurultayları da Azərbaycanda qadın hərəkatının inkişafında, onun daha mütəşəkkil forma almasında mühüm rol oynamışdır. Sovet hakimiyyəti illərində Azərbaycanda da qadın hüquqlarının müdafiə etdiyini bəyan edilməklə, təhsil və əmək fəaliyyətində qadınlara da kişilərlə bərabər imkanlar təmin edildiyi qeyd olunurdu. Bununla belə, sovet hakimiyyəti illərində bərabərlik əslində formal olaraq təmin etmiş oldu.

1957-ci ilin 28-29 mart ayında Azərbaycan Elmlər Akademiyasının böyük salonunda Azərbaycan qadınlarının II qurultayı keçirildi. 36 ildən sonra yenidən Azərbaycan qadınları növbəti tədbirdə ümumilikdə 23,8 min qadın, o cümlədən 18,5 min nümayəndə iştirak etmişdir. Qurultaya respublikanın bütün rayon və şəhərlərinin təmsil edən 745 nümayəndə seçilmişdir. Onların 515-i azərbaycanlı, 125 nəfəri rus, qalanları isə başqa xalqların nümayəndələri idi. [20]

Azərbaycan qadınlarının üçüncü qurultayı 1967-ci ilin oktyabr ayının 20-22-dı F. Dzerjinski adına (indiki Şəhriyar adına) klubda keçirildi. Bu qurultayda 506 nümayəndə iştirak edirdi. Bu qurultay Azərbaycan qadınlarının mədəni və siyasi yüksəlişinə yeni bir baxış idi. [20]

Azərbaycan qadınlarının IV qurultayı 1972-ci ildə iyunun 15-16-da Bakıda keçirilmişdir. İki gün davam edən qurultayda ötən qurultaydan bəri respublikamızda görülən işlərdən və qarşıda duran problemlər müzakirə olundu. Eyni zamanda gələcəkdə görüləcək tədbirlərin istiqamətləri müəyyənləşdirildi. [20]

1998-ci il sentyabrın 14-15-də Azərbaycan qadınlarının tarixi sayca beşinci qurultay hesab olunan, müstəqil Azərbaycanın ilk-birinci qurultayı keçirildi. Bu qurultay yüksək səviyyədə, həmçinin yeni keyfiyyətdə, yeni məzmunda keçirilmişdir. Qurultayda 2101 nəfərin iştirak etdirdi. Qurultayda demokratiyanın inkişafı, iqtisadi islahatlar sahəsində görülən mühüm tədbirlərlə yanaşı qadınların qarşılaşdıqları problemlər qeyd olundu. [4, s. 136]

Müstəqil Azərbaycanın II Qurultayı 2003-cü il 27 sentyabr tarixində Bakıda Respublika sarayında keçirilmişdir. Qurultayda 2070 nəfər nümayəndə seçilmişdir. Qurultayda qadın məsələləri, qadın problemlərinin gələcək istiqamətləri müəyyənləşdirildi. [4, s. 136]

Azərbaycan qadınlarının sentyabrda keçirilmiş III qurultayı da ölkənin ictimai-siyasi həyatında mühüm hadisə kimi dəyərləndirilmiş, bu təbəqənin cəmiyyətdəki layiqli yerinin, mühüm proseslərə fəal müdaxilə imkanlarının təcəssümü olmuşdur. İki minə yaxın nümayəndənin iştirak etdiyi qurultayda Misir, Küveyt, Gürcüstan, Rusiya, Türkiyə, Litva, ABŞ, İordaniya və İsveçrədən nümayəndələrin iştirakı da tədbirin əhəmiyyətindən və mötəbərliyindən xəbər verirdi. Qadınların ali məclisində respublikada son beş il ərzində qadın hərəkatının inkişafı sahəsində görülən işlərə yekun vurulmuş, gender bərabərliyinin möhkəmləndirilməsi üzrə dövlət strukturlarının və qeyri-hökumət təşkilatlarının perspektiv fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdi. Qurultayda Azərbaycanda qadın hərəkatının bugünkü vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda geniş fikir mübadiləsi aparılmışdı. [23]

Yuxarıda göstərilən hər bir Azərbaycan qadınlarının qurultayları öz tarixi, ictimai-siyasi mahiyyətinə görə Azərbaycan qadın hərəkatı tarixinin mühüm və əhəmiyyətli cəhətlərini özündə ehtiva edən səhifələrindəndir.

Bildiyimiz kimi, tarixən bütün cəmiyyətlərdə qadınların həyatı, hüquqları, onların iqtisadi, ictimai-siyasi və mədəni sahələrdə kişilərlə bərabər hüquq və azadlıq əldə etmələri bir problem kimi mütərəqqi insanlarını daim düşündürmüşdür. Azərbaycan tarixinin yarım əsrlik bir dövrü Ümummilli Lider Heydər Əliyevin adı, yorulmaz fəaliyyəti ilə sıx və eyni zamanda birbaşa bağlıdır. Ulu Öndər öz xalqının mənəvi, siyasi və ictimai həyatında misilsiz xidmətlər göstərən dahi şəxsiyyət idi. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövr elm, təhsil, səhiyyə və mədəniyyət, iqtisadiyyat sahəsində sürətli inkişaf ilə yadda qalmışdır. Ulu Öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi Azərbaycan qadınlarının vəziyyətinin yaxşılaşdırılması sahəsində də yetkin dövlət siyasətinin həyata keçirilməsini əsas aparıcı istiqamətlərdən biri hesab etmiş, bu sahəyə xüsusi diqqət və qayğı göstərmişdir. Heydər Əliyev həmişə Azərbaycan qadınlarının mərdliyini, dözümlüyünü, səmimiyyətini, sədaqətini və ismətini ən ali dəyər kimi qiymətləndirmişdi. 1998-ci il iyunun 1-də Ümummilli Liderimiz Azərbaycan qadınlarının bir qrupunu qəbul edərkən demişdir: "Mən bütün fəaliyyətimdə həmişə qadınlara arxalanmışam, onları özümün dayağı hesab etmişəm. Bunlar sadəcə sözlər deyildir. Mən onları sınaqdan keçirmişəm. Mənim həyatımın çox ağır və çətin anları olub. Bütün bu mərhələlərdə qadınlar özlərini həmişə çox etibarlı göstəriblər və bu sınaqlardan şərəflə çıxıblar". Bu görüş zamanı Heydər Əliyev qətiyyətlə bildirmişdi ki, "Azərbaycan Prezidenti kimi indi mən birinci növbədə qadınların cəmiyyətdə rolunun artmasına çalışıram. Əminəm ki, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunda, iqtisadi islahatlarda və digər proseslərdə siz həmişə fəal olacaqsınız və ön sıralarda gedəcəksiniz". [12]

Həmin dövrdən başlayaraq qadın hərəkatına dövlət tərəfindən qayğı xeyli artmışdır. Bu gün qadınlar cəmiyyətin idarə edilməsində, dövlət əhəmiyyətli işlərdə xüsusi rola malik olmaqla bərabər qadınlarımız böyük səlahiyyət daşıyan yüksək vəzifələrdə çalışırlar. 1995-ci ildə məhz ölkə başçısının Fərmanı ilə respublikamız BMT-nin "Qadınlara münasibətdə hər cür ayrı-seçkiliyin ləğv olunması" Konvensiyasına qoşulmuşdur. Elə həmin il Pekin konfransına hazırlıq dövründə Azərbaycanda fəaliyyət göstərən Qadınların Milli Komitəsi müxtəlif konfranslar keçirmiş, təhlillər, tədqiqatlar aparmış və bunun əsasında Pekin konfransına məruzə hazırlanıb təqdim olunmuşdur. 1995-ci ildə respublikamızın qadınları IV Ümumdünya qadınlar konfransında iştirak etmişlər. [12]

1998-ci ilin yanvarında ölkə başçısının yeni bir Sərəncamı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. [21] Bu, dövlətin qadınlara münasibətdə apardığı siyasətin yüksək göstəricilərindən idi. 2000-ci ildə dövlət başçısı "Azərbaycan Respubli-

kasında qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərman imzalamışdı. [5, s. 54] Bu Fərman qadınlarla bağlı dövlət siyasətinin ən yüksək səviyyədə qurulmasına real sübut olmaqla yanaşı belə bir siyasət həm də bərabər hüquqlar, bərabər imkanlar siyasətinə doğru açılan yeni bir yol idi. Bu Fərman gender bərabərliyi və qadınların imkanlarının genişləndirilməsi sahəsində dövlət strategiyası yaradılmasının əsasını qoydu. Fərman kişilərlə yanaşı qadınların və bütün dövlət strukturlarında bərabər səviyyədə təmsil olunmasını həmçinin qanunvericiliyin gender ekspertizasının keçirilməsini nəzərdə tutmuşdur. Sözügedən tarixi sənəddə qadınlarla kişilərin hüquq bərabərliyi, xüsusilə onların dövlət idarəçiliyi sistemində layiqli səviyyədə təmsil olunmaları, habelə qadınların vəziyyətinə dair beynəlxalq standartlara cavab verən statistik məlumatların hazırlanması, iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlər, gender siyasəti tələblərinin rəhbər tutulması, qadınlarla kişilər arasında bərabər imkanların yaradılması, qaçqın və məcburi köçkün qadınların məşğulluğu problemlərinin həlli yolları və digər məsələlər mühüm yer tuturdu. Fərmandan sonra qadınlarımız arasında ictimai-siyasi fəallıq daha da artmışdır. Artıq respublikamızda çox saylı qeyri-hökumət qadın təşkilatı fəaliyyət göstərir. Onlar respublika səviyyəsində keçirilən mühüm tədbirlərdə xüsusi fəallıq göstərirlər. Hal-hazırda Azərbaycan Respublikasında 80-dən artıq qadın problemləri ilə məşğul olan QHT mövcuddur. [14]

Demokratik cəmiyyətin əsas qurucuları olan qadınlar, əlbəttə ki, ilk növbədə özlərinin əsas vəzifələrini – analıq missiyalarını yerinə yetirməyə üstünlük versələr də, ictimai və siyasi həyatımızda da əhəmiyyətli mövqe tuturlar. Bu gün qadınlarımız Milli Məclisdə təmsil olunur, dövlət idarəçiliyi, hüquq-mühafizə orqanları, elm, təhsil, səhiyyə, mədəniyyət sahələrində müxtəlif aparıcı vəzifələr tuturlar. Hazırda respublikamızda komitə sədri, nazir müavini və digər yüksək vəzifələrdə işləyən qadınlarımız da var.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və səyi nəticəsində Azərbaycanda müvafiq sahədə dövlət siyasətinin inkişaf etdirilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti 6 fevral 2006-cı il tarixli Fərmanına əsasən Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazası əsasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı.[17] Komitə Respublikada ailə, qadın və uşaq siyasətlərinin həyata keçirilməsi üzrə milli mexanizmdir. Komitə qadın və kişilərin qərar qəbuletmə prosesində bərabər iştirakı məsələlərinə xüsusi diqqət verir. Azərbaycanda qadın və kişilərin ictimai və siyasi qərar qəbuletmədə balanslaşdırılmış iştirakını təmin etmək və beynəlxalq hüquqi sənədlərdən irəli gələn öhdəliklərini daha yaxşı yerinə yetirmək üçün müvafiq tədbirlər həyata keçirilir. 10 oktyabr 2006-cı il tarixdə Azərbaycan Respublikasının "Gender bərabərliyinin təminatları haqqında" Qanunu qəbul edildi. "Gender bərabərliyinin təminatları haqqında" Qanunun mühüm cəhəti onun həm keçmişdə, həm də indi qadınların insan hüquqlarından və fundamental azadlıqlardan istifadə etmələrinə mane olan onlara qarşı müəyyən kök salmış ayrı-seçkiliyin təzahürlərinin tanıdılıb ortaya qoyulmasıdır. Bu qanuna görə hüquqi, təşkilati və digər mexanizmlər vasitəsilə dövlət kişi və qadınların idarəçilikdə və qərar qəbuletmədə bərabər təmsilçiliyə, bərabər imkanların yaradılmasına, gender bərabərliyinin təmin edilməsinə və ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına təminat verir. [15] Qanunda qadınlar üçün əsaslı bərabərliyin təmin edilməsi üçün zəruri olan xüsusi tədbirlərin görülməsini nəzərdə tutulmuşdur.

Azərbaycanda gender bərabərliyinin təmin olunması məqsədilə bir çox beynəlxalq sənədlər ratifikasiya edilməklə yanaşı, bir sıra dövlət proqramları, milli fəaliyyət planları qəbul olunmuşdur. Bunlardan Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında insan hüquq-

larının müdafiəsinə dair Milli Fəaliyyət Planı"nı nümunə kimi qeyd etmək olar. [19] Sözügedən sənəddə qadın hüquqlarının müdafiəsinə dair tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Məişət zorakılığının qarşısının alınması, psixoloji və tibbi yardım, bu cür zorakılığın qurbanları üçün zəruri kompensasiya və reabilitasiyanın təmin edilməsi üzrə tədbirlər də daxil olmaqla, qadınlara qarşı zorakılığın bütün formalarına qarşı mübarizə aparılması qadınların hüquqlarının daha yaxşı səviyyədə müdafiəsi üçün tədbirlər də öz əksini tapmışdır.

Onu da qeyd etmək lazımdır ki, 2000-2005-ci illər üçün Qadın Problemləri üzrə Milli Fəaliyyət Planından sonra 2008-2012-ci illər üçün Ailə və qadın Problemləri üzrə Milli Fəaliyyət Planı gender bərabərliyi əsasında ailə və ailədaxili münasibətlərin gücləndirilməsi və inkişaf etdirilməsi, sağlam cəmiyyət yaradılması və bununla da ölkənin tərəqqisinə töhfə verilməsi məqsədilə hazırlanmışdır. Hazırda Plan qəbul edilmə mərhələsindədir. Həmin Fəaliyyət Planı hər iki sahədə, demoqrafik problemlər, ailə planlaşdırılması, reproduktiv sağlamlıq və qadınların qərar qəbuletmə proseslərində, siyasi, iqtisadi və ictimai həyat və s. sahələrdə iştirakını artırmaq zərurəti kimi mühüm istiqamətləri nəzərdə tutur. [16]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Demokratik cəmiyyətdə gündəlik zorakılıqla mübarizə üzrə Respublika Kompleks Proqramında" cinsi və digər növ qeyri-bərabərsizliyin, ailə zorakılığının, cəmiyyətdə qəddarlığın qarşısının alınması məqsədilə hər cür strateji planların işlənib hazırlanması, qadınların onlara qarşı törədilən zorakılıqdan müdafiə edilməsi, o cümlədən BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Konvensiya"sının həyata keçirilməsini tənzimləyən qanunların hazırlanması haqqında təkliflərin işlənib hazırlanması nəzərdə tutulur. [16]

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı gender bərabərliyi sahəsində əldə olunmuş nailiyyətlərin qeyd olunması və boşluqların üzə çıxarılması və həmin boşluqların aradan qaldırılması məqsədilə Azərbaycanda 2007-ci il üzrə Gender münasibətlərinə dair İnsan İnkişafı Hesabatı hazırlamışdır. Həmin Hesabat Azərbaycanda, habelə postsovet məkanında gender münasibətlərinə dair aparılmış irimiqyaslı sorğulardan əldə olunmuş faktları əks etdirir. Həmin sorğunun əsas məqsədi Azərbaycanda gender münasibətlərini müəyyən etmək, onların gender bərabərliyinə təsirini təhlil etmək və nəticələrə uyğun tövsiyələr işləyib hazırlamaqdan ibarətdir. [2, s. 5] Gender münasibətlərinə dair 2007-ci il üçün İnsan İnkişafı Haqqında Hesabat çərçivəsində aparılmış sorğu qadınların siyasi və ictimai qərar qəbul etmədə iştirakı ilə bağlı kişilərin ziddiyyətli fikirlərini aşkara çıxarmışdır. Belə ki, Hesabata əsasən, kişilər qadınlarla hakimiyyəti bölüşmək istəmədiyi halda, kişilərin bəzi qrupları qadınların aparıcı vəzifələrdə irəli çəkilməsinin tərəfdarı qismində çıxış edir. Onlar hətta qadınların siyasətlə məşğul olacaqları təqdirdə bütün dünyada sülhün bərqərar olacağı fikrini bölüşürlər. Qadınların fəallığına qarşı çıxanlar öz fikirlərini qadının əsasən "ana" və "həyat yoldaşı" rolu ilə əsaslandırırlar. Qadınların ictimai və siyasi fəallığının tərəfdarı olanlar isə əksinə düşünürlər ki, nə qədər çox qadın siyasətlə məşğul olarsa, beynəlxalq münasibətlərdə bir o qədər sülh və dostluq olar. [2, s. 76]

Son illərdə gender amilinin ümumi siyasətə daxil edilməsi prosesi uğurla həyata keçirilir. Gender amilinin ümumi siyasətə daxil edilməsi baxımından respublikamızda qəbul edilən strategiya və proqramların təkmilləşdirilməsi mühüm əhəmiyyətə malikdir. Gender məsələləri üzrə məsul şəxslərin təyin edilməsi ilə bütün dövlət qurumları və digər təsisatlarının gender bərabərliyinin təmin edilməsi ilə bağlı fəaliyyəti təkmilləşdirilmişdir. [18] Nəticədə, gender problemləri bu strukturların siyasətlərinə və proqramla-

rına daxil edilməkdə davam edir. Bu halda nazirliklər və digər dövlət təşkilatları gender problemləri ilə bağlı əldə olunmuş nailiyyətlərin monitorinqini asanlıqla aparmaq imkanı əldə edir.

Son illər Azərbaycan qadınları beynəlxalq əhəmiyyətli tədbirlərdə fəal iştirak etməklə yanaşı, həm də həmin tədbirlərdə qadınların cəmiyyətin inkişafı, mövcud problemlərin həll olunması kimi məsələlərində yaxından iştirakının əhəmiyyətini önə çəkir. 10-11 iyun 2008-ci il tarixdə Heydər Əliyev Fondunun təşəbbüsü, YUNESKO-nun və İSESKO-nun dəstəyi ilə Bakıda keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" Beynəlxalq Forumu da olduqca əhəmiyyətli tədbirlərdəndir. [22] Sözügedən Forumda qadınların cəmiyyət həyatının iqtisadi, mədəni, sosial sahələrində rolunun genişləndirilməsi istiqamətində qanunların gücləndirilməsi, onların zorakılığın və ayrı-seçkiliyin bütün təzahürlərindən qorunması, qadınların hüquqlarını müdafiə etmək üçün milli təsisatların və vətəndaş cəmiyyəti təşkilatlarının işinin təkmilləşdirilməsi, qadınların təhsil problemlərinin həlli, Gənclərin Sivilizasiya Alyansı çərçivəsində gənc qadınların qlobal mədəniyyətlərarası dialoqda fəallığının yüksəldilməsində gənclər təşkilatlarının təşəbbüskarlığının artırılması məsələləri müzakirə edilmişdir. Ölkə başçısının Beynəlxalq Forum iştirakçılarına ünvanladığı müraciətdə Beynəlxalq Bakı Forumunun əhəmiyyəti xüsusilə vurğulanır: "Forumun şərqlə qərbin mədəni dəyərlərini özündə cəmləşdirən və əsrlərdən bəri bu sivilizasiyaları tarixi İpək Yolu boyunca körpü kimi birləşdirən Azərbaycanın paytaxtında keçirilməsi rəmzi məna daşıyır. Mədəniyyətlərarası dialoq sahəsində zəngin təcrübəyə malik olan və yüksək tolerantlığı ilə seçilən ölkəmizdə qadınlar daim cəmiyyəti düşündürən problemlərin həlli istiqamətində nəzərəçarpacaq xidmətlər göstərmişlər. Qadınlar dünya tarixinin hər bir dövründə sülhün, əmin-amanlığın və dinc yanaşı yaşamanın ən böyük təminatçısı olmuşdur. Onlar gələcək nəsillərin maraqlarının müdafiəsi naminə səylərini bu gün də əsirgəmir, beynəlmiləl zəmində ölkələrin və mədəniyyətlərin bir-birini daha yaxşı tanımaları üçün qüvvələrini səfərbər edirlər". [10]

Yuxarıda qeyd olunanları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, qadınların sosial-iqtisadi və siyasi hüquqlarının artması istiqamətində beynəlxalq əməkdaşlıq daha demokratik, təhlükəsiz və sabit dünyaya nail olmaq üçün göstərilən yüksək səylərdir. Cəmiyyətdə qadınların statusu nə qədər yüksək olarsa, daimi demokratik inkişaf daha da yüksək səviyyədə təmin olunar .

Gender bərabərliyinin təmin edilməsi üçün olduqca əhəmiyyətli və həyata keçirilməsi vacib olan maarifləndirmə işinin aparılmasıdır. Bununla əlaqədar respublikamızda davamlı və genişmiqyaslı tədbirlər həyata keçirilməkdədir. Belə ki, 16 yanvar 2008-ci il tarixdə Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMT-nin Əhali Fondu (UNFPA) arasında XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə birgə layihəyə dair sənədlərin imzalanmışdır.[17] Əsas məqsədi əhalinin maarifləndirilməsi, qadın və uşaqların məişət zorakılığından müdafiə olunması, zərərli vərdişlərin aradan qaldırılması, erkən nikahların qarşısının alınması və ailədə baş verən zorakılığın uşaqlara təsirinə yol verilməməsi kimi əsl insani münasibətləri əks etdirən bu layihə çərçivəsində, həmçinin beynəlxalq təcrübənin öyrənilməsi, o cümlədən beynəlxalq ekspertlərin cəlb edilməsi, əhali arasında insan hüquqları və gender bərabərliyi ilə bağlı məlumatlandırma kampaniyasının, regional seminarların təşkil edilir.

Bu gün Azərbaycanın birinci xanımı Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva şəxsi nümunəsi və çoxşaxəli ictimai fəaliyyəti ilə cəmiyyətdə yüksək nüfuz qazanmışdır. Mehriban xanım Əliyeva işinin çox olmasına baxmayaraq, fəaliyyətinin

əsas hissəsini qadın və uşaqların problemlərinin həllinə, eyni zamanda, milli mədəni sərvətlərimizin qorunmasına yönəldir. Qaçqın və məcburi köçkün ailələrinə, xüsusi yardıma və qayğıya ehtiyacı olan əlil və xəstə uşaqlara, qadınlara ayrıca diqqət yetirir, onların problemlərinin həllinə kömək edir. Mehriban xanımın çoxşaxəli fəaliyyəti qadınlarımızı ölkənin ictimai-siyasi həyatında daha fəal olmağa ruhlandırır.

Qadın hərəkatı böyük qüvvədir. Bu gün geniş miqyasda fəaliyyət göstərən qadın təşkilatlarının əsas amalı Azərbaycanda demokratik proseslərin daha da möhkəmləndirilməsi yolunda çalışmaq, milli quruculuq konsepsiyasının başlıca istiqamətlərini yüksək səviyyədə həyata keçirməkdir. Bir mühüm cəhəti unutmayaq ki, cəmiyyətin rifahı qadınların və kişilərin şəxsi və ictimai həyatda balanslaşdırılmış gender münasibətlərindən və ahəngdar əməkdaşlığından asılıdır.

Onu da qeyd etməliyik ki, bu gün Azərbaycanda qadınlar demokratik, hüquqi, sivil, dünyəvi dövlət quruculuğunda fəal iştirak edir, sosial-siyasi və mədəni həyatımızın bütün sahələrində geniş fəaliyyət göstərirlər.

İftixar etməli haldır ki, bu gün Azərbaycan qadınının səsi dünyanın ən mötəbər kürsülərindən gəlir. Qadınların sosial-iqtisadi və siyasi hüquqlarının artması istiqamətində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi dünyada demokratiyanın, təhlükəsizliyin və sabitliyin bərqərar olması üçün göstərilən ən əhəmiyyətli səylərdir. Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasında qadınlarımız öz sözünü deyir. Müstəqil Azərbaycan dövləti qadınların inkişafı üçün beynəlxalq və milli kontekstdə dünya standartlarına uyğun olaraq gender probleminin məhz beynəlxalq hüquq normaları əsasında qurulmasını dövlət siyasətinin üstün istiqamətlərindən biri hesab edir. Mövcud adət-ənənələrin də gender bərabərliyinin təmin olunmasına öz təsiri vardır. Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması həm hüquqi müstəvidə, həm də mənəvi dəyərlərin inkişafı yolu ilə, maarifçiliklə, eyni zamanda xalqın təfəkkürünün yeniləşməsi ilə bağlıdır.

Bu gün cəmiyyətin hər bir üzvünün inkişaf etməsi üçün geniş imkanlar yaradılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin qadın problemlərinə dair göstərdiyi diqqət və qayğısı, gender problemləri üzrə yaradılan beynəlxalq və ölkədaxili hüquqi-normativ baza deməyə imkan verir ki, yaxın gələcəkdə müstəqil Azərbaycanda gender bərabərliyi məsələsi beynəlxalq standartlara uyğun olaraq öz həllini tapacaqdır.

### *ƏDƏBIYYAT*

1.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2008, səh. 104
2.Azərbaycanda gender münasibətləri: tendensiyalar və problemlər. Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat 2007. s. 104
3.Azərbaycanda qadın məsələsi tarix və müasirlik: XIX əsrin sonu-XX əsrin əvvəli. Bakı 2006. s. 271
4.Azərbaycan Sovet Ensiklopediyası. I cild. Bakı 1976. s. 591
5.Gender təhsilinin interaktiv metodikası. Azərbaycan Müəllimlər İnstitutu. Bakı 2008. s. 223
6.Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın Azərbaycanda həyata keçirilməsi haqqında 2-ci və 3-cü dövri hesabatı. Bakı 2005. s. 81.
7.James Kirby Martin, Randy Roberts, Steven Mintz, Linda O. McMurry, James H. Jones. America and its peoples. A mosaic in the making. Volume 2 – from 1865.Fourth Edition. Longman U. S. 2001. p. 939
8.Введение в гендерную науку. I том. Баку-2006. с 505.
9.Azərbaycan Demokratik Respublikası (ADR). http: //az.wikipedia.org/

10.Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Beynəlxalq Bakı Forumunun iştirakçılarına müraciəti 10 iyun 2008. http://prezident.az/
11.Əliyeva İ. Azərbaycanın ilk qadın jurnalisti. http://www.azerbaijan-news.az/
12.Əliyeva İ. Azərbaycan qadını həmişə öndədir. http://azerbaijan.news.az/
13.İlk qadın klubu. http://www.gender-az.org/
14.Hüseynova H. Azərbaycanda qadın hərəkatının yeni mərhələsi. http://www.azerbaijan-news.az/
15.Hüseynova H. Ailə, qadın və uşaqlara diqqət dövlətin nəzarətindədir. http://www.azerbaijan-news.az/
16.Hüseynova H. Qadınlara münasibətdə zorakılığın qarşısının alınması prioritet vəzifə kimi gündəmdədir. http://www.azerbaijan-news.az/
17.Hüseynova H. Qadın problemlərinin həlli dövlətimizin diqqət mərkəzindədir. http://azerbaijan.news.az/
18.Hüseynova H. «Son bir ildə Azərbaycanda gender bərabərliyi qorunub» http://news.trend.az/
19.Qasımov C. İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı beynəlxalq hüququn yeni ənənələrlə zənginləşməsinə öz dəyərli töhfələrini verəcəkdir. http://azerbaijan.news.az/.
20.Qocayeva A. Qadın hərəkatına, problemlərinin həllinə xüsusi diqqət yetirilib. http://www. azerbaijan-news.az/
21.Mirzəbəyli İ. Heydər Əliyev: Azərbaycan qadınları həmişə milli iftixara çevrilən işlər görüblər. http://www.xalqqazeti.com/
22.Rasimoğlu A. Azərbaycan beynəlxalq tədbirlərin mərkəzinə, sammitlər şəhərinə və qlobal layihələrin təşkilatçısına çevrilib. http://www.azerbaijan-news.az/
23.Sentyabrın 26-da Bakı İdman Sarayında Azərbaycan Qadınlarının III Qurultayı keçirilmişdir http://scfwca.gov.az/

**К. К. АХВЕРДИЕВА**

## ОБЕСПЕЧЕНИЕ ГЕНДЕРНОГО РАВЕНСТВА И ЖЕНСКОЕ ДВИЖЕНИЕ В АЗЕРБАЙДЖАНЕ

В этой статье комментированы мероприятия направленные на обеспечение гендерного равенства в Азербайджане, в том числе развитие женского движения, а также роль женщин нашей Республики. В статье также отражены участие женщин Азербайджана в политических процессах, их роль в развитии общества, а также проблемы участии женщин в интеграции Азербайджана в современное мировое сообщество.

**K.N. HAGVERDIYEVA**

## PROVING GENDER EQUALITY AND WOMEN MOVEMENT IN AZERBAIJAN

In this article, it is made comment on activities that have been carried out to provide gender equality in Azerbaijan, as well as the development of women movement and the current activities of women in Azerbaijan. In this article participation of Azerbaijani women in political processes, their role in the development of modern society and also the problem of participation of Azerbaijani women in the integration of Azerbaijan into modern world are commented on.

***Rəyçilər: s.e.n.K.C.Məmmədov, t.e.d.L.Həsənova.***
***AMEA-nın İnsan hüquqları İnstitutunun Elmi Şurasının 16 dekabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №04).***